# Tarixi ədalət bərpa edildi



***Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” 7 iyul 2021-ci il tarixli Fərmanında bildirilir ki, ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişib, regionların iqtisadi potensialı artıb, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşıb, əhalinin rifah halı yüksəlib. Ardıcıl olaraq reallaşdırılan məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər respublikamızın iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirib və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaradıb.***

Sənəddə, eyni zamanda, vurğulanır ki, hazırda düşməndən təmizlənən ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Azad olunan torpaqların zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafı üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi həmin ərazilərin iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Fərmanda ölkəmizin iqtisadi rayonlarının yeni bölgüsünü fərqləndirən bir sıra məqamlar öz ifadəsini tapıb. Belə ki, Bakı Abşeronun tərkibindən ayrılaraq, ayrıca bir iqtisadi rayon kimi qəbul edilib. Bundan başqa Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları da yaradılıb.

“Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Fərmanda Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılmasının zəruriliyi də öz ifadəsini tapıb. Burada qeyd olunur ki, Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Dövlətimizin başçısı son çıxışlarının birində bu barədə deyib: “Biz Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqram qəbul etdik. Bu proqram bir neçə ili əhatə edir və birinci il – 2021-ci il üçün proqram icra olunur. Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük.

*(ardı 2-ci səhifədə)*

Xalq qəzeti 2021.- 5 sentyabr.- S.1;2.

# Tarixi ədalət bərpa edildi

*(əvvəli 1-ci səhifədə)*

Əlbəttə, burada təkcə maliyyə vəsaiti kifayət etməz. Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq. Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur".

Prezident İlham Əliyev daha sonra qeyd edib: "Əgər 1923-cü il 7 iyul tarixi xalqımızın faciəsi idisə, 2021-ci ildə biz artıq bu qara səhifəni də qapadıq. Artıq 7 iyul gözəl bir tarix kimi tarixdə qalacaq. Çünki 2021-ci il iyulun 7-də mənim tərəfimdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılmasına dair fərman imzalandı, tarixi ədalət bərpa edildi".

Bəli, bu, bir həqiqətdir ki, Azərbaycanın ərazilərinin işğaldan azad edilməsi Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının təsis olunmasını şərtləndirib. Beləliklə, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması ilə Azərbaycan iqtisadiyyatı bir neçə dəfə böyüyüb, iqtisadiyyatın regional və sektoral strukturu dəyişib, habelə Qarabağın iqtisadi dövriyyəyə qayıtması və regional kommunikasiyaların, o cümlədən, Zəngəzur dəhlizinin açılması perspektivi yeni reallıqlar üzə çıxarıb. Fərmanda göstərildiyi kimi, Qarabağ bölgəsinin sürətli inkişafına zəmin yaranıb.

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması bu ərazilərin bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasına töhfə verəcək. Ölkədə iqtisadi idarəetmədə çevikliyin təmin olunmasına, institusional islahatlar aparılmasına xidmət edəcək, xüsusən də iqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyini artıracaq. Regionların sosial-iqtisadi inkişaf proqramı, eyni zamanda, Qarabağın inkişaf strategiyası da iqtisadi rayonların yeni bölgüsünə uyğunlaşdırılacaq.

Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov söhbət zamanı dedi:

– İqtisadi rayonların indiki təsnifatı Azərbaycan iqtisadiyyatının inkişafı və rayonlarımızın iqtisadi potensialının genişləndirilməsi baxımından vacibdir. Bununla bərabər, iqtisadi rayonlar sırasına Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının adlarının daxil edilməsi də böyük önəm daşıyır. Bu, həm strateji, həm iqtisadi, həm də tarixi baxımdan mühüm qərar, əhəmiyyətli bir addımdır. Əvvəlki Yuxarı Qarabağ və Kəlbəcər–Laçın iqtisadi rayonları bölgüsündə yerləşən rayonlar indi artıq Qarabağ iqtisadi rayonunda yer alır. Şərqi Zəngəzur isə həmin bölgənin iqtisadi potensialından istifadə edilməsi və genişləndirilməsi baxımından xüsusi diqqət çəkir.

Qarabağ iqtisadi rayonunun həm sənaye, həm turizm, həm də aqrar sektorda böyük potensialı var. Şərqi Zəngəzur da kifayət qədər böyük potensiala malik iqtisadi rayondur. Hazırda işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq tədbirləri həyata keçirilir. Yeni bölgü düşməndən təmizlənən ərazilərimizdə, bütövlükdə Qarabağda bərpa və yenidənqurma prosesinin daha sürətlə aparılmasına, iqtisadi inkişafın formalaşmasına imkan verəcək.

Bir sözlə, yeni təsnifat Qarabağın iqtisadi potensialından daha geniş istifadə edilməsinə zəmin yaradacaq. Xüsusən nəzərə alınmalıdır ki, Şərqi Zəngəzur Zəngəzur dəhlizi vasitəsi ilə Naxçıvan Muxtar Respublikası və qardaş Türkiyəyə çıxış imkanı əldə edəcək. Bu isə Şərqi Zəngəzur iqtisadi rayonunun, həm də strateji, coğrafi baxımdan əhəmiyyətini göstərən amillərdən biridir. Bu baxımdan, yeni təsnifat Azərbaycanda iqtisadi inkişafın sistemliliyi və dayanıqlığını təmin etmək baxımından vacib olmaqla yanaşı, işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialından daha geniş şəkildə istifadə etməyə imkan verəcək. Bu da təbii ki, həmin ərazilərimizdə iqtisadi inkişafa daha qısa zamanda nail olunmasını şərtləndirəcək.

Hazırda işğaldan azad edilən ərazilərdə elektrik təsərrüfatının qurulması ilə yanaşı, yol infrastrukturunun da bərpası diqqət mərkəzində saxlanılır. Müharibədən sonra bu istiqamətdə başlanan işlər bu gün sürətlə davam etdirilir. Bərdə–Ağdam avtomobil yolu tikilir, Zəfər yoluna asfalt döşənməsinin sentyabr ayında yekunlaşması nəzərdə tutulur. Paralel olaraq Füzuli–Şuşa, Horadiz–Ağbənd yolları çəkilir. Zəngilan–Qubadlı–Laçın, eyni zamanda, Füzuli–Hadrut, Füzuli–Cəbrayıl yollarının tikintisi də sürətlə aparılır. Bütün bunlarla bərabər, Kəlbəcərə rahat çatmaq üçün Göygöldən Ömər aşırımı üzrə yolun çəkilişi də diqqətdə saxlanılır.

Yeri gəlmişkən, Göygöl və Kəlbəcər rayonlarını birləşdirən Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolunun layihə uzunluğu 80,7 kilometr təşkil edir. Dövlət başçısının tapşırığına əsasən, avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Layihənin keçdiyi ərazinin sərt dağlıq və qayalıq relyefinin olmasını nəzərə alaraq, yolun əsas hissəsinin II texniki dərəcəyə uyğun, yəni hərəkət hissəsinin 2 zolaqdan, yoxuşlarda isə əlavə zolaq verilməklə tikintisi nəzərdə tutulub. Tunel və körpü olan hissələrdə isə 1-ci texniki dərəcəyə uyğun 4 hərəkət zolağının inşası planlaşdırılır.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə ümumi uzunluğu 2575 metr olan 103 dairəvi boru, həmçinin zəruri olan yerlərdə ümumi uzunluğu 450 metr olan 5 yeni avtomobil körpüsünün inşası işləri də icra olunacaq.

Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə işğaldan azad edilmiş Kəlbəcər rayonunun ərazisindən keçir. Bu üzdən sözügedən rayonun bir-çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişi təmin edəcək.

Burada bir məsələni də xatırlatmaq istərdik. Göygöldən Ömər aşırımı üzrə yol dövlətimizin başçısının çıxışlarının birində vurğuladığı kimi, heç vaxt olmayıb. Sadəcə, cığır kimi istifadə edilib: "Qış aylarında heç vaxt ondan istifadə olunmayıb. Biz indi yol çəkirik, tunellər çəkirik ki, ilin bütün mövsümlərində o yoldan istifadə edə bilək. Eyni zamanda, biz Göygölü də turizm mərkəzi kimi Kəlbəcərin gələcək mənzərəli turist mərkəzləri ilə bağlamış oluruq. Digər yollar, Kəlbəcər, Laçın rayonlarında hərbi əhəmiyyətli yollar çəkilir. Bu yolların ümumi uzunluğu 700 kilometrə qədərdir. Çünki orada yol olmayıb, sərhədə gedən istiqamətdə yol olmayıb. Orada qar may ayında əriyib. İndi qış gələnə qədər – qış da oktyabr ayında gələcək, – oktyabr ayına qədər biz orada nə qədər yol çəkməliyik və bunu edirik. Bu, böyük miqyaslı işdir, mətbuatda çox da işıqlandırılmır. Təbiidir, amma strateji nöqteyi-nəzərdən və sərhəddə öz mövqelərimizi möhkəmləndirmək nöqteyi-nəzərindən bu yolların çox böyük əhəmiyyəti var".

Qarabağda reallaşan infrastruktur layihələri beynəlxalq yükdaşımalar baxımından da mühüm önəm kəsb edir. Hazırda Füzulidə Horadiz şəhəri ilə Zəngilan rayonunu birləşdirən dəmiryol xəttinin inşası davam etdirilir. Bu dəmiryol xətti də Zəngəzur dəhlizinə inteqrasiya olunacaq. Başqa sözlə, Qarabağda formalaşan nəqliyyat infrastrukturunun, o cümlədən, Azərbaycanda reallaşmış nəqliyyat sisteminin işğaldan azad olunan ərazilər vasitəsilə beynəlxalq nəqliyyat dəhlizlərinə inteqrasiyası mümkün olacaq.

Zəngəzur dəhlizi Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizinə qovuşacaq. Nəticədə Füzuli rayonunda formalaşan infrastruktur beynəlxalq nəqliyyat dəhlizlərinə inteqrasiya olunmaqla daha çox yük və sərnişindaşımalar imkanı əldə edəcək.

Prezident İlham Əliyevin bildirdiyi kimi, Qarabağda bütün bərpa-quruculuq işləri Azərbaycanın öz maliyyə gücü ilə, heç bir yerdən maddi yardım almadan reallaşdırılır. Düzdür, bununla bağlı Azərbaycan tərəfindən xarici şirkətlər dəvət olunublar. Amma onlar podratçı qismində fəaliyyət göstərirlər. Bütün vəsait dövlət büdcəsindən xərclənir: "Dövlət büdcəsi üçün bu, böyük yükdür. Təbiidir, amma biz bunu edirik, edəcəyik. Dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik".

***"Xalq qəzeti"***